# "Azərenerji"də Xocalı faciəsi ilə bağlı tədbir keçirilib





**Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı "Azərenerji" ASC tərəfindən Bakıda və regionlarda tədbirlər keçirilib. Öncə "Azərenerji" və "Azərişıq" ASC-lərin rəhbərliyi başda olmaqla energetiklər soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər. Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, Xocalı soyqırımına həsr edilmiş abidənin önünə gül dəstələri qoyulub, faciə qurbanlarının xatirəsi ehtiramla yad edilib.**

Daha sonra "Azərenerji" ASC-nin mərkəzi binasında tədbir keçirilib. Tədbirdə "Azərenerji" tərəfindən hazırlanan və Xocalı faciəsindən keçən 33 ili əhatə edən film nümayiş olunub.

Tədbirdə çıxış edən "Azərenerji"nin rəhbəri Baba Rzayev Xocalı soyqırımının öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə xalqımızın yaddaşında heç zaman unudulmayan bir tarix səhifəsi olduğunu bildirib. Qeyd edib ki, 44 günlük Vətən müharibəsində misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. "Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını ucaltdı. Bu gün artıq Xocalı sakinləri işğaldan azad edilmiş doğma yurd-yuvalarına, Vətənlərinə geri qayıdırlar", - deyə Baba Rzayev bildirib.

Tədbirdə digər çıxış edənlər də Xocalı faciəsinin miqyasından, qüdrətlənən Azərbaycan dövlətinin şəhidlərin qanını yerdə qoymamasından danışıblar.

Azərbaycan.- 2025.- 27 fevral (№ 44).- S.4.